# İbtidai siniflərin Azərbaycan dili dərslərində mənimsədilən folklorla bağlı mətnlər

**Aynur Qulusoy**
*Bakı Qızlar Universiteti*
**E-mail:** aynur82app@gmail.com

**Rəyçilər:** filol.ü.e.d., prof. A.H. Hüseynova,
filol.ü.f.d., dos. Q.N. Süleymanova

**Açar sözlər:** ibtidai sinif, müəllim, şagird, qavrama, vərdiş, informasiya, mətn, Azərbaycan dili, dərs

**Ключевые слова:** начальная школа, учитель, ученик, восприятие, привычка, информация, текст, Азербайджанский язык, урок

**Key words:** primary school, teacher, pupil perception, habit, information, text, Azerbaijani language, lesson

Dəyişmə və inkişafda olan təhsil-demokratiya əlaqəsinə baxdığımızda, belə bir nəticə ilə rastlaşarıq. Qloballaşma və demokratikləşmə özləri ilə gələn və hər keçən gün daha da bel bağladıqları təhsilin əhəmiyyətini gün üzünə çıxarır. Çünki təhsilin keyfiyyəti düşdüyündə, qloballaşan dünyada geri planda qalması, demokratikləşmə prosesində çətinliklərlə qarşılaşması və təhsilin cəmiyyətin məlumat və rifah səviyyəsini artıran bir rol oynamaqdan çox keyfiyyətsiz təhsil almış kütlələr meydana gətirməsi qaçılmazdır [5, s. 15].

Qloballaşma və modernləşmə prosesi əksər xalqlarda milli kimliklə əlaqəli müzakirələri intensivləşdirmişdir. Bəzən isə milli kimliklə əlaqədar müzakirələrə pessimist istiqamətdən yanaşılır və bu isə müəyyən bir millətin "öz milli kimliyini tanımaması" olaraq qiymətləndirilir. Milli dövlətlərdə, həmçinin imperiyalarda yeni milli kimlik ideyasını ifadə etmək belə özü uğursuzluqla nəticələnmişdir. Məsələn SSRİ dövründə mövcud olan "sovet vətəndaşı" kimliyinin irəli sürülməsi uğursuzluqla nəticələnmişdir.

XX əsrdə yaşamış filosof Bertran Rassel təhsil haqqında belə yazır: "Əslində biz insanların hansı bilikləri mənimsəməli olduğunu nəzərə alarkən aydın olur ki, bu bilikləri hamı bilməlidir. Amma elə şeylər vardır ki, bunları müəyyən şəxslər bilməlidir, digərlərinin isə bunları bilməyi vacib deyildir".

B.Rassel belə qeyd edir ki, 14 yaşına qədər olan uşaqlara elə biliklər öyrədilməlidir ki, hansı ki, o bilikləri hər kəs bilir. Onlara lazım olacaq peşə ilə bağlı olan biliklər isə sonradan mənimsədilməlidir.

Türk xalqının milli atası sayılan Mustafa Kamal Atatürk müəllimlərə müraciət edərək demişdir: "Əfəndilər! Yetişəcək uşaqlarımıza və gənclərimizə alacaqları təhsilin hüdudu nə olacaqsa olsun, ən əvvəl və hər şeydən əvvəl Türkiyənin istiqlalına, öz mənliyinə, milli ənənəsinə düşmən kəsilən bütün ünsürlərlə mübarizə etmək gərəyi öyrədilməlidir" [6, 24]. Təhsil sisteminin idarə edilməsində yeniləşmənin müxtəlif istiqamətdə qoyulmasına diqqəti artırmaq lazımdır. Bunun üçün resept şəklində olan pedaqogikadan əl çəkib, total eynilikdən yaxa qurtarmaq üçün çıxış yolları axtarılmalıdır.

2010-cu ildə respublikamızda təhsil sahəsində aparılan prosesdən sonra, Ümumtəhsil sahəsində 13 yanvar 2011-ci ildən Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi qüvvəyə minmişdir. Bu nizamnamə Azərbaycan Respublikasının Təhsil Qanununa uyğun hazırlanmış

və bütün ümumtəhsil müəssisələri üçün keçərlidir. Bu qanuna əsasən ümumtəhsil məktəbləri, şəffaflıq, demokratiklik və aşkarlıq prinsiplərinə əsaslanmalıdır.

Qeyd etmək lazımdır ki, Azərbaycanın milli dövlətçilik ideologiyası öz-özlüyündə Azərbaycan xalqının milli birliyini, həmçinin Azərbaycan (türk) dilinin, milli adət-ənənələrinin, habelə milli dəyərlərinin qorunub saxlanması və təbliği, onların əsasında müasir tipli dövlət quruculuğu, bundan başqa sürətli inkişafı ehtiva edir. Deyl Karneqinin sözlərinə əsasən: "Bizim dövrümüz - nəzəri cəlb edən, kəskin effekt dövrüdür. Və həqiqəti sadəcə qeyd etmək kifayət deyil. Həqiqəti canlı, maraqlı və həyəcanlı, gərgin etmək lazımdır" [9, 21].

*Birinci siniflərin "Azərbaycan dili" dərsliyində verilən folklorla bağlı mövzuların xüsusiyyətləri*

1-ci sinifdə keçirilən Azərbaycan dili dərsliyində verilən mətnləri bu şəkildə qruplaşdırılmışdır:

1) Mən məktəbliyəm;
2) Ailə və məktəb;
3) Nağıllar aləmində;
4) Yaxşı nədir, pis nədir;

Dərslikdə nitq etiketləri mənimsədilərkən bədii mətnlərdən biri olan "Zolaqlı Burunduk" [1, 110] adlı əfsanə verilmişdir. Əfsanəyə görə, ayı burundukun kürəyinə sığal çəkir. Elə həmin vaxtdan onun kürəyini beş zolaq bəzəyir. Əfsanədə şagirdlərə estetik zövq verən, onları düşündürən, əksliklər və ziddiyyətlər ilə üz-üzə qoyan həyat materialına əsaslanır. Mətndəki nitq etiketləri mənimsədilərkən şagirdlərin ətrafındakı şəxslərə düzgün münasibət yarada bilməsinə şərait yaradır, əxlaq mədəniyyətini formalaşdırır. Fransız yazıçısı V.Hüqo yazırdı ki, yaşadığımız dünyada səmadan da gözəl mənzərə vardır, bu, insan qəlbinin dərinliyidir. Bu dərinliyə baş vura bilmək üçün gözəl danışmağı, müraciət formalarını, dinləməyi bacarmaq lazımdır. Bədii mətndə "sağ ol", "buyur" və s. Etiketlərdən istifadə edilmişdir. Şagirdlərə nitq etiketlərindən düzgün istifadə etmək bacarığı mənimsədilərsə o zaman onlarda rəğbət hissi, nəzakətli davranmaq, yaşıdlarına, böyüklərinə hörmət etmək bacarığı formalaşar

Mövsüm mərasimləri qədim insanların etiqadı, təbiət hadisələrinə münasibəti, həm də əmək fəaliyyəti ilə əlaqədar düzəldilmişdir. Əkinçilik, maldarlıq, ovçuluq, balıqçılıq və s. Məşğuliyyətlərlə də bağlı olaraq mərasimlər təşkil edilmişdir. Qədim adət-ənənələr əsrlərin sınağından çıxmış, xalqın formalaşmasında, onun mənən zənginləşməsində mühüm rol oynamışdır. Adət-ənənəsi, bayramları olmayan xalq yoxdur. Adət-ənənə, mərasimlər, bayramlar xalqın mənəviyyatı, xalqın simasıdır, onun soykökü ilə bağlı onunla doğub inkişaf edən amillərdəndir. Müxtəlif xalqların adət və ənənələri onların birini digərindən fərqləndirir, bu xalqların milli koloritini, özünəməxsusluğunu nümayiş etdirir. O adət və ənənələr, inam, anlayış, bayramlar yaşayır ki, onlar əsrlərin sərt qanunlarına sinə gərir, çətin sınaqlardan uğurla çıxırlar. Bütün xalqlarda belə adətlər, belə bayramlar olmuşdur. Azərbaycan xalqının da özünəməxsus mərasim və bayramları vardır [7, 107].

Novruz bayramı bu günümüzə kimi gəlib çatmış ən gözəl, ən xoş bayramlardan biridir. 1-ci sinif dərsliyində "Novruz bayramı" adlı kiçik bir mətn verilmişdir. Burada kiçik yaşlı məktəblilərə milli mənəvi dəyərlərimiz, adət-ənənələrimiz aşılanmışdır. Şagirdlər tarixən qorunub saxlanan adət və ənənələrimizin, bugünkü gün də xoş əhval yaratdığının şahidi olurlar.

Yazın gəlişi ilə təbiətin oyanışı insanlarda şən əhval-ruhiyyə, sevinc hissləri yaradır.

Bundan xoşhallanan, ruhlanan insanlar yeni il münasibəti ilə mərasimlər təşkil edərək müxtəlif nəğmələr oxumuş, əyləncəli oyunlar təşkil etmişlər. Mətndə Keçəl və Kosanın Novruz bayramının ən əziz qonaqları olduğunu qeyd edərək onların uşaqları necə gözəl əyləndirib, şənləndirdiyi verilmişdir. Bundan əlavə, evlərdə xonçaların bəzədilməsi, süfrələrin açılması, həyətlərdə tonqalların qalanması haqqında kiçik məlumat verilmişdir [1, 106].

Novruz bayramı günündən başlamış on-on iki gün müddətində dost-tanış, qohum-əqrəba bir-birinin evinə bayramlaşmağa, təbrikə gedir, bir-birlərinin evlərinə Novruz bayramı üçün hazırlanmış nemətlərdən sovqat aparırlar. Əvvəllər küsülü olanlar bu gün mütləq barışmalıdır. Yeni ildə kin-kidurət aradan götürülməlidir. Beləliklə, Novruz bayramı yazın. Yeni təsərrüfat ilinin başlanğıcını bildirməklə yanaşı, həm də ümumel, ümumxalq, ümumdövlət sevinc, şadlıq bayramına çevrilir [8, 26].

*İkinci siniflərin "Azərbaycan dili" dərsliyində verilən folklorla bağlı mövzuların xüsusiyyətləri*

2-ci sinif dərsliyində bədii mətnlər bu bölgüdə verilmişdir;

1) Dəyərlərimiz;
2) Ailə;
3) Sinfimizin uşaqları;
4) Heyvanlar və quşlar;
5) Yaxşı nədir, pis nədir;
6) Təbiətin sirləri;
7) Söz sənətimiz;
8) Nağıllar aləmində .

2-ci sinif dərsliyində, 1-ci bölgüdə "Çahargah əfsanəsi" adlı bədii mətn verilmişdir. Mətndə vüqarlı, məğrur nəğməkarın xoş mahnılar bəstələyərək insanları necə şənləndirdiyi qeyd edilmişdir. Padşah ondan yalnız özü üçün mahnılar bəstələməyini istəməyinə baxmayaraq, nəğməkar bu təklifdən imtina edir. Musiqiçi xalqından ayrı düşərsə, artıq musiqi bəstələyə bilməyəcəyini söyləyir. Burada şagirdlərə xalqına, millətinə bağlılıq, sonsuz məhəbbət, vətənpərvərlik hissləri aşılanır, yaltaqlıq, ikiüzlülük pislənir. Daha sonra musiqiçini sevən dostlarının birləşərək onu zindandan xilas edərək, başqa ölkəyə göndərilməsi təsvir edilmişdir. Burada şagirdlər güc birliyinin nəyə qadir olduğunun şahidi olurlar. Karvan uzun bir yol getdikdən sonra ac-susuz qalır, heydən düşür. Bu zaman musiqiçi öz məharətini göstərir. Dəvələrin boynundan asılmış zınqrovların yerini dəyişib, gözəl bir ahəng yaradır. Dəvələr musiqinin ahəngindən cana gəlir və yola düşüb mənzil başına çatırlar. Burada kiçik yaşlı məktəblilər musiqinin gözəlliyinin nə qədər xoş əhval yaratdığının şahidi olurlar. Musiqi estetik zövqün formalaşmasında xüsusi rol oynayır, uşqaların tərbiyəsinə, təfəkkürünə, dünyagörüşünə müsbət təsir edir [2, s. 28-30].

2-ci sinif Azərbaycan dili dərsliyində mənimsədilən bədii mətnlərdən biri olan "Şir və siçan" mətnində dostluq, yoldaşlıq, xeyirxahlıq kimi müsbət əxlaqi keyfiyyətlər aşılanır [2, s. 87].

*İkinci siniflərin "Azərbaycan dili" dərsliyində verilən folklorla bağlı mövzuların xüsusiyyətləri*

3-cü sinif dərsliyində bədii mətnlər bu bölgüdə verilmişdir;

1) Ailə və məktəb;
2) Mənəvi dəyərlər;
3) Sirli dünya;

4) Sevimli qəhrəmanlarım;
5) Tarixi şəxsiyyətlər;
6) Bayramlar və tarixi günlər;
7) Hikmət xəzinəsi;
8) Mədəni irsimiz.

4-cü bölmədə "Koroğlu" dastanı ilə bağlı "Alı kişinin qisası" adlı mətn verilmişdir (3, 96-97).

Qəhrəmanlıq dastanları xalqın müxtəlif dövrlərdə azadlıq uğrunda, vətən uğrunda apardığı mübarizəsi, qəhrəmanlığı, azad sevgi uğrundakı əzabları ilə bağlı yaranıb formalaşmışdır [7, 366].

Rövşən surəti igidliyi, məğrurluğu, vətənpərvərliyi ilə şagirdlərdə mənəvi gücü formalaşdırır. Burada düşmənə qarşı hər an mübarizəyə hazır olmaq, xalqını sevib, dar günündə yananda olmaq və s. kimi yaxşı keyfiyyətlər aşılayır. Daim vətənin müdafiəsinə hazır, düçmənə qarşı sonsuz nifrət, kin aşılanır, igidlik, qorxmazlıq daim ön plana çəkilir [3, 96-97].

"Koroğlu" dastanında Rövşən xalqın bütün gözəl keyfiyyətlərini özündə toplayan tipik bir surətdir. Xalq sənətkarı öz qəhrəmanlarını hər bir dövrdə böyük ümumiləşdirmə, tipikləşdirmə sayəsində boya-başa çatdırırlar.

Koroğlu ətrafına xalqın ən igid, vətənpərvər oğullarını toplayır. Məhz "Koroğlu" dastanının əsas ideyası xarici qəsbkarlardan və yerli feodallardan vətəni müdafiə etmək ideyasıdır [7, 449].

3-cü sinif dərsliyində sifətin əlamət və keyfiyyəti mənimsədilərkən "Qazanın ölməyi" adlı kiçik bir lətifə verilmişdir. Lətifələr baş verən hadisələri gülməli tərzdə əks etdirir, gülüş doğurmaqla yanaşı ictimai-əxlaqi, tərbiyəvi məna da daşıyır [3, 106-107].

*Dördüncü siniflərin "Azərbaycan dili" dərsliyində verilən folklorla bağlı mövzuların xüsusiyyətləri*

4-cü sinif dərsliyində bədii mətnlər bu bölgüdə verilmişdir;
1) Ailə və məktəb;
2) Niyə belə deyirik;
3) Əməksevərlik;
4) Yüz min niyə;
5) Dostluq;
6) Ana təbiət;
7) Əxlaqi dəyərlər;
8) Kainatın sirləri.

Dərsliyin "Yüz min niyə" bölməsində "Yarasa nə üçün gecə ova çıxır" adlı əfsanə verilmişdir. Əfsanəyə görə, yarasa ondan vergi istəyən heyvanların şahına: "Mən heyvan yox, quşam", deyir. Havada uçan quş yerdə gəzən heyvanların şahına vergi verməməlidir. Daha sonra quşların şahından əmr gəlir ki, yarasa mənə vergi ödəməlidir. Əgər verməsə, bu zaman heyvanların və quşların şahı belə qərara gəlirlər ki, pusqu qurub onu tutsunlar. Elə o zamandan yarasa gündüzlər gizlənir, gecələr yemək axtarmaq üçün ova çıxır [4, 103-104].

4-cü sinifdə mənimsədilən "Ruminin məsləhəti" adlı mətndə xeyirxahlıq, ehtiyacı olanlara əl tutmaq, nəfsinə hakim olmaq və s. kimi müsbət əxlaqi keyfiyyətlər aşılanır.

Rumi müdrik şəxsiyyətlərdən biri olmuş, insanlar ondan mənəvi dəstək, məsləhət almışlar. Bir gün qadın oğlunu Ruminin yanına aparır və ondan oğluna şəkəri tərgitməsi üçün məsləhət verməsini, səhvini başa salmasını istəyir. Lakin Rumi uzun bir müddət uşağa məsləhət

verməyi ertələyir. Rumi uşaqlıqdan şəkərə aludə olduğunu və vərdişdən əl çəkmədən yol göstərə bilməyəcəyini söyləyir.

İnsan özündə formalaşdırmadığı bacarıqları, olmayan keyfiyyətləri başqasına aşılaya bilməz. Hər kəs ilk öncə öz nəfsinə hakim olmağı bacarmalı, özü ilə mübarizə aparmalıdır [4, 20].

**Məqalənin aktuallığı.** Məqalə ibtidai siniflərdə Azərbaycan dili dərslərində öyrədilən folklorla bağlı mətnlərin təhlilinə həsr edilmişdir. Müasir dövrümüzdə Azərbaycan dili dərslərində qrammatik qaydaların mətnlərin köməyilə mənimsədilməsi aktuallıq kəsb edir. Bu istiqamətdə dərsliklərdə verilən mətnlərin təhlili və müqayisəsi aktualdır.

**Məqalənin elmi yeniliyi.** İbtidai siniflərdə tədris edilən folklor mətnlərinin özünəməxsusluqlarının aşkarlanması məqalənin elmi yeniliyini təşkil edir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Tədqiqatdan alınan qənaətlərdən müasir Azərbaycan dili, oxu, həyat bilgisi fənlərinin tədrisi zamanı istifadə etmək olar.

## Ədəbiyyat


1. Azərbaycan dili ( I sinif üçün dərslik). Bakı: Altun kitab, 2016.
2. Azərbaycan dili ( II sinif üçün dərslik). Bakı: Altun kitab, 2014.
3. Azərbaycan dili ( III sinif üçün dərslik). Bakı: Altun kitab, 2014.
4. Azərbaycan dili ( IV sinif üçün dərslik). Bakı: Altun kitab, 2015.
5. Balayev H. Orta məktəblərdə Azərbaycan dilinin tədrisi metodikası. Bakı, 1996.
6. Cəfərov S. Azərbaycan dilində söz yaradıcılığı. Bakı, 1960.
7. Əfəndiyev P.Ş. Azərbaycan şifahi xalq ədəbiyyatı. Ali məktəb üçün dərslik. Bakı: Elm və təhsil, 2012.
8. Novruz bayramı ensiklopediyası. Bakı: Şərq-Qərb, 2008.
9. Paşayev A, Cəfərova E. İnteraktiv təlim Azərbaycan dili və ədəbiyyat dərslərində. Bakı, 2008.


**А. Гулусой**

## Фольклорные тексты об уроках Азербайджанского языка в начальной школе

## Резюме


Понимание на слух рассматривается как вид деятельности, используемый учащимися до тех пор, пока не сформируются их навыки чтения и понимания. Хотя его можно использовать без понимания средней школы в любом возрасте, основным преимуществом является период в начальных классах, пока полностью не сформируются идеальные навыки чтения.

В самом начале школы база данных очень мала благодаря знаниям, полученным благодаря аудированию. В учебном году учащиеся также узнают больше, слушая информацию. Это включает в себя изучение текстов.

Есть много причин, которые влияют на навыки слушания в средней школе. Исследования показали, что существует параллельная связь между развитием мышления и развитием языка.

**A. Gulusoi**

## Folklore based articles on Azerbaijani language classes of elementary school


## Summary

Listening comprehension is considered as the type of activity used by the students until their reading and comprehension habits are formed. Although it can be used without understanding the middle school at all ages, the main advantage is the period in the elementary classes, until perfect reading habits are fully formed.

At the very beginning of the school, the database is very small, thanks to the knowledge gained through listening. In the school year, students also learn more by listening to the information. This includes studying texts.

There are many reasons that affect the student's listening skills in secondary school. Studies have shown that there is a parallel relationship between the development of thinking and the development of language.


**Redaksiyaya daxil olub:** 14.05.2019